BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Humanitar elmlər seriyası 2009

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN ROLU

**İ.X.ZEYNALOV**
*Bakı Dövlət Universiteti*
*ibrahimov1954@box.az*

*Yol iqtisadi inkişafın əsas amillərindən biridir.*
*əgər müasir infrastruktur, yol olmasa,*
*iqtisadiyyat inkişaf edə bilməz.*
**Ümummilli Lider Heydər Əliyev**

*Məqalədə XX əsrin 90-cı illərinin ortalarından etibarən Respublikada gedən sosial-iqtisadi münasibətlərin yeni şəkildə formalaşmasının nəqliyyat kompleksinə bilavasitə təsiri, ardıcıl surətdə aparılan islahatlar, ümummilli lider H.Əliyevin təməlini qoyduğu yol-nəqliyyat kompleksi sahəsindəki önəmli quruculuq işlərinin ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi əksini tapmışdır.*

Ölkə iqtisadiyyatının kompleks inkişafı məhsuldarlığın artması, istehsalın səmərəliliyinin yüksəldilməsi, güclü infrastrukturun olması ilə sıx bağlıdır.

Dünya təcrübəsi göstərir ki,sərbəst bazar iqtisadiyyatı şəraitində istehsal və sosial infrastrukturların rolu və əhəmiyyəti daha da artır.

İnfrastruktur iki hissədən ibarətdir: istehsal və sosial. İstehsal infrastrukturuna maddi istehsala xidmət edən sahələr-dəmir və şosse yolları, nəqliyyat energetika, texniki təchizat sistemi, rabitə, su təchizatı, mühəndis qurğuları, kanallar, avtomat idarəetmə sistemləri daxildir (1.122).

Sosial infastruktura isə kadr hazırlığı,məişət xidməti, elm, maarif,səhiyyə mədəniyyət, ictimai iaşə, sərnişin nəqliyyatı,istilik sistemləri və s. daxildir.

Faktlara müraciət etsək, görərik ki, qeyd olunan infrastruktur sahələrinin inkişaf etdirilməsi müstəqillik dövründə daha çox diqqətyetirilən sahədir.

XX əsrin 90-cı illərindən etibarən Respublikada sosial-iqtisadi münasibələrin yeni şəkildə formalaşması nəqliyyat kompleksinə də bilavasitə təsir göstərmişdir. Bu sahənin inkişafında XX əsrin90-cı illərin ortalarından yeni mərhələ başlamışdır. İstehsal infrastrukturunun bütün sahələrində, o cümlədən nəqliyyat sektorunda, 90-cı illərin ortalarından başlayaraq ardıcıl şəkildə islahatların aparılması, ölkənin əlverişli coğrafi mövqedə yerləşməsindən səmərəli şəkildə istifadə olunması, ölkələr arasın əlaqələrin genişləndirilməsi ölkənin nəqliyyat kompleksinin yüksələn xətlə inkişafına şərtləndirmişdir. Bu, əlbəttə ölkə prezidentinin yeritdiyi düzgün siyasətin, uzaqgörənliyinin nəticəsi idi. Belə ki, respublika iqtisadiyyatına 1993-cü ildə 15-milyon, 1995-ci ildə 375 milyon, 1996-2000-ci illərdə 9 milyard dollar xarici investisiya qoyulmuşdu və bunun 90 faizi istehsal sahələrinin inkişafına yönəldilmişdi (2.313).

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakıda böyük «Böyük İpək Yolu» Beynəlxalq Konfransı keçirildi. Dünyanın 32 ölkəsinin  və beynəlxalq təşklatların təmsil olunduğu bu konfransda «Bakı Bəyannaməsi» qəbul edildi. Yeni İpək Yolunun tranzit ölkələr üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulandı, Böyük İpək Yolunun mənzil qərargahı yaradıldı və onun Bakıda yerləşdirilməsi qərara alındı (3.45-46).

Yol nəqliyyatı sisteminin inkişaf etdirilməsi Azərbaycandan yükdaşımanın xeyli artmasına səbəb olmuşdur. Belə ki, bu nəqliyat yolu ilə Azərbaycandan 1996-cı ildə 345 min, 2002-ci ildə isə artıq 33 milyon tondançox yük daşınmışdı.

Bakı Beynəlxalq Dəniz Limanı yeni İpək Yolunda baş körpüyə çevrildi. Bu keçid dünya standartlarınauyğun olaraq yenidən quruldu. Xəzər Nəqliyyat Donanmasında yük tutumu320 min ton olan 69 gəmi, o cümlədən 34 tanker və 27 quru yük, 8 sərnişin gəmisi və bir bərə-gəmi var idi.

Respublika rəhbərinin müdrik siyasi nəticəsində Azərbaycanı nəqliyyat blokadasına almaq və ona təsir göstərməkcəhdləri puça çıxdı.

Nəhayət,1997-ci ilin martında Rusia Federasiyası Azərbaycanla sərhəd məsələlərini geniş müzakirə etdikdən sonra məhdudiyyətləri götürdü, Respublikaya qonşu ölkədən şosse, dəmir və su yolları açıldı (4.410).

«Azərbaycan Respudlikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət prqramının (2004-2008-ci illər)» icrasının yekunlarına həsr olunmuş konfransda çıxış edən respublika Prezidenti İlham Əliyev xüsusi olaraq vurğulamaşdır ki, «son 5 il ərzində nəqliyyat sektorunda problemlərin böyük bir hissəsini həll etmişik. Dörd aeroport- Naxcıvan, Gəncə, Zaqatala və Lənkaran aeroportları tikilibdir… Zaqatala aeroportu, bəlkə də, bəziləri deyə dbilirdi ki,bu, prioritet deyildir. Ancaq mən hesab edirəm ki, bu prioritetdir. Çünki bu, bizim stratejimaraqlarımıza xidmət göstərir»

Qeyd edək ki, müstəqilliyimizin son on ilində respublikanın nəqliyyat sistemi əhəmiyyətli dərəcədə genişlənmişdir. Müqayisə üçün qeyd edək ki, 1998-ci illə müqayisədə 2002-ci ildə ölkəmiz yük daşıması göstəricisi üzrə MDB ölkələri arasında birinci olmuşdur (6.594). Bu birincilik sonrakı illərdə qorunub saxlanmışdır.

Nəqliyyat sektorunda 1996-cı ildən başlayaraq müşahidə olunan stabil artım 2002-ci ildə davam etmiş, du sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən 98,4 milyon ton və ya əvvəlki ilə müqayisədə 6,3 faiz çox yük daşımışdır. 1996-2002-ci illərdə ümumilikdə, nəqliyyat sektorunda yük daşınması üzrə orta illik nisbi artım 15,6 faiz təşkil etmişdir (7.594).

1996-2002-ci illərdə daşınmış yüklərin 54,6 faizi avtmobil,16,1 faizi boru kəməri, 17,7 faizi dəmir yolu, 11,6 faizi isə dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir. Aparılmış araşdırmalar göstərir ki, 1993-2003-cü illərdə nəqliyyat sistemində, o cümlədən yükdaşımada əhəmiyyətli dəyişikliklər baş vermişdir.

Bu gün Azərbaycanda Xəzərdə də yükdaşıma nəqliyyatı sürətlə inkişaf edir.

Yükdaşımalar artdıqca, dəmir yolu daha da çox işələyir, daha da çox iş yerlərinin açılmasına şərait yaradır.

Avtomobil yollarının tikintisi son 5 ildə daha geniş vüsət almışdır. Respublika Prezidentinin düzgün siyasətinin nəticəsidir ki, ölkənin bütün istiqamətlərinə yollar çəkilir, xüsusilə Bakı şəhərində yol nəqliyyatı çətinliklərinin, problemlərinin həllində çox faydalı işlər görülür. Həm magistral, həm şəhərlərarası yolların, həm də ən ucqar kəndlərə müasir yolların çəkilməsinə xüsusi diqqət yetirilir.

Azərbaycan iqtisadiyyatının yüksək templə inkişafını təmin edən, davamlı

sabsabitliyə, tərəqqiyə və yüksəlişə aparan uğurlu siyasət bütün sahələrdə olduğu kimi, nəqliyyat-yol kompleksinin inkişafı üçün də əlverişli imkanlar yaratmışdır. Ulu öndər Heydər Əliyev respublikanın nəqliyyat infrastrukturunda yolların mühüm əhəmiyyət kəsb etdiyini daim qeyd edərək bu sahənin inkişafına xüsusi önəm vermişdir. 2004-cü ildən bu siyasət uğurla davam etdilir. Azərbaycanın bütün bölgələrində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır. Bunlar hamısı 1996-2003-cü illərdə nəqliyyat-yol kompleksi sahəsində əldə edilən nəticələri əsasında davam etdirilir. Belə ki, 1996-cı ildən etibarənnəqliyyat kompleksinin mühüm sahələrindən olan sərnişin daşınmasında böyük nailiyyətlər əldə edilmişdir. Bu sahədə əhəmiyyətli islahatlar aparılmış, nəticədə mülkiyyətində olan avtomobil nəqliyyatı müəssisələrin özəlləşdirilməsi və fiziki şəxslərə verilməsi, habelə özəllərin və onların normal fəaliyyəti üçün şərait yaradılması nəticəsində 2002-ci ildə sərnişin daşınmasının 58,8 faizi bilavasitə fiziki şəxslər tərəfindən həyata keçirilmişdir.

Beynəlxalq Avrasiya nəqliyyat dəhlizinin reallaşması respublikanın müstəqillik illərində əldə etdiyi ən uğurlu nailiyyətlərdən biri olmaqdadır.

Avropa-Qafqaz- Asiya ölkələri arasında yüklərin qarşılıqlı olaraq faydalı və təhlükəsiz ötürülməsi sahəsində bu dəhliz regional nəqliyyat dəhlizləri ilə rəqabət aparan dəhlizə çevrilmiş və ölkə iqtisadiyyatının inkişafında yerüstü nəqliyyat kompleksinin formalaşmasına ciddi təsir edən amillərdən birinə çevrilmişdir.

Qeyd etmək olar ki,199ci illə müqayisədə 2002-ci ildə dəhliz vasitəsilə yük daşınması 6,5 dəfə, 2002-2008-ci illərdə isə 8,1 dəfə artmışdır.

2002-ci ildə respublika üzrə avtomobillərin sayı 457,4 min ədəd təşkil etməklə, əvvəlki illərlə müqayisədə 1,3 faiz və ya 5800 ədəd artmışdır. Avtomobillərin 16,8 faizi yük avtomobilləri, 3,8 faizini sərnişin avtobusları, 76,6 faizini sərnişin minik avtomobilləri, o cümlədən 73,6 faizini şəxsi minik avtomobilləri, qalan hissəsini isə digər növ avtomobillər təşkil etmişdir.

Onu da qeyd edək ki, ölkəmizin yol nəqliyyat infrastukturunun inkişafında keyfiyyətcə yeni mərhələ başlamışdır. Bu mərhələnin başlıca istiqamətləri respublika Prezidentinin məqsədyönlü siyasətində öz əksini tapmışdır.

Aparılan təhlilər göstərir ki, yol-nəqliyyat sistemlərinin, avtomobil yolları şəbəkəsinin təkmilləşdirilməsi bütünlükdə Azərbaycanın sosial-iqtisadi tərəqqisini-sahibkarlığın, turizmin, kənd təsərrüfatının, sosial infrastrukturun, eləcə də mədəni həyatın inkişafını sərtləndirdiyindən bu sahəyə diqqətin artırılması olduqca vacibdir. Həmçinin nəqliyyat-yol sisteminin müasir standartlara uyğun inkişaf etdirilməsi eyni zamanda, ölkəmizin göostrateji mövqeyi, beynəlxalq magistralların kəsişdiyi bir coğrafi məkanda yerləşməsi baxımdan da aktualdır.

Bu istiqamət dövlət nəzarətində olmaqla, bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Respublika Prezidenti İlham Əliyevin hələ 11 fevral 2004-cü ildə imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda (2004-2008-ci illər) infrastrukturunun bərpasına, inkişaf etdirilməsinə və yeniləşdirilməsinə neçə böyük həssaslıqla yanaşdığını bir daha nümayiş etdirmişdir. Eyni zamanda dövlət başçısının yol-nəqliyyat sistemində mövcud problemlərin kompleks həlli məqsədilə 25 oktyabr 2005-ci il tarixində imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yolarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında» sərəncam mühüm əhəmiyyətə malikdir. Respublika Nazirlər Kabinetinin bu sərəncam əsasında hazırladığı «Azərbaycan Respublikasının avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsinə və

inkişafına dair (2006-2015-ci illər) Dövlət proqramı» ölkə Prezidenti tərəfindən imzalandıqdan sonrakı dövrdə bu sahədə əsaslı işlər görülmüşdür.

2005-2008-ci illərdə yol-nəqliyyat sistemində həyata keçirilən tədbirlər və görülən işlər uğurlu nəticələrə gətirib çıxarmışdır. Ölkə Prezidenti12-oktyabr 2006-cı il tarixdə «Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində «Avtomobil Yolları» Məqsədli Büdcə Fondunun yaradılması haqqında» sərəncam imzalamışdır. Sərəncamda xüsusi olaraq vurğulanır ki, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafınıntəmin olunmasında, o cümlədən regionlarda sahibkarlığın daha geniş yayılmasında və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasında müasir tipli yolların əhəmiyyəti çox böyükdür.

Araşdırmalar göstərir ki, yol-nəqliyyat sektorunun inkişafı mili maraqlarımızın təmin olunmasına xidmət etməkdədir. Yol nəqliyyat sisteminin dövrün tələblərinə uyğun olaraq yeniləşməsi, müasir infrastrukturun formalaşması baxımından yeni mərhələ kimi tarixə çevrilməkdədir.

Respublika yol-nəqliyyat infrastrukturunun beynəlxalq standartlar səviyyəsinə yüksəlməsi istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

Ölkə başçısının 22 fevral 2007-ci il tarixli sərəncamı ilə Nəqliyyat Nazirliyinin tabeliyində «Azəryolservis» ASC yaradılması isə ölkənin avtomobilyolu təsərrüfatı sahəində xidmətin səmərəli təşkilinə, ümumi istifadə olunan avtomobil yollarının, körpülərin, tunellərin və digər təyinatlı yol şəbəkələrinin istismarı, bərpası, yenidən qurulması və tikilməsi ilə bağlı digər tədbirlərin yerinə yetirilməsinə imkanlar açılmışdır.

Qeyd edək ki, xarici investisiya əsasında həyata keçirilən layihələr üzrə 2008-ci ildə Hacıqabul-Kürdəmir yolunun 11,6 kilometrlik «Kürdəmir dairəvi» hissəsinin, 94 kilometrlik ikizolaqlı Gəncə-Qazax yolunun uzunluğu 10,6 kilometr olan «Tovuz dairəsi» hissəsinin tikintisi başa çatmışdır (9.)

İki zolaqlı Kürdəmir-Ucar yolunun tikintisinə başlanılmışdır. Ucar-Yevlax, Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhəddi avtomobil yolunun inşası davam etdirilmişdir.

Bakı dairəvi avtomobil yolunun, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhəddi avtomobil yolunun ilk 22 kilometrlik hissəsinin müasir yol standartlarına uyğan tikintisi davam etdirilmiş və Bakı-Şamaxı Muğanlı, Kürdəmir-Ucar, Yevlax-Gəncə avtomobil yolarınınınşası isə başa çatmışdır.

2008-ci ildə Bakı-Ələt, Müğan-İsmayıllı-Qəbələ, Şəmkir-Gədəbəy, Şamaxı-Pirqulu, Qalaqayın-Aqrobaza, Qusar-Ənik-Ləzə avtomobil yollarınıntəmiri ilə də bağlı az iş görülməmişdir.

Həmçinin, ümumi uzunlğu 95 kilometr olan 2 zolaqlı Xaçmaz-Quba, Qəndov-Quba-Qusar-Xudat avtomobil yollarının yenidən qurulmasının 2011-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Bu gün Respublikada ümumi istifadədə olan avtomobil yolları 22134 kilometrdir. Bu yolların 1684 kilometri beynəlxalq magistrallar, 2669 kilometri respublika əhəmiyyətli, 130 min kilometri yerli əhəmiyyətli, 1,5 min kilometri Bakı şəhərinin ərazisində, 3,3 min kilometri rayon və digər şəhərlərin ərazilərində yollar, prospektlər və küçələrdir (1, 8 yanvar 2009). Respublikada körpülərin sayı isə 1200-dən çoxdur.

Son zamanlar dövlət başçısının yol-nəqliyyat sisteminin inkişafına diqqəti daha da artmışdır (10).

Yol-nəqliyyat sisteminin inkişafı üçün mili investisiya qoyuluşunun məbləği 2004-cü ildə 16,3 milyon manat təşkil etmişdirsə, 2007-ci ildə bu rəqəm 464 milyon manat olmuşdur. Bu vəsaitin miqdarı 2008-ci ildə isə 522 milyon manat məbləğində olmuşdur(11).

Beləliklə, araşdırmalar göstərir ki, 2007-2008-ci illərdə Bakının nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün çox əhəmiyyətli işlər görülmüşdür. 2008-ci ildə Heydər Əliyev adına beynəlxalq hava limanı – Əzizbəyov dairəsi avtomobil yolunun istifadəyə verilməsi bu istiqamatdə həyata keçirilən tədbirlərdən biridir.

Hazırda Azərbaycanda yol, nəqliyyatı infrastrukturununmüasir səviyyəyə çatdırılması üçün kompleks tədbirlər planı hazırlanmış və həyata keçirilməkdədir.

Beynəlxalq yol-nəqliyyat sistemi ilə yanaşı, respublikadaxili, magistral, həm şəhərlərarası, həm də kənd yollarının tikintisi, təmiri geniş vüsət almışdır.

Bu sahədə proqram hazırlanmış və bu proqramın icrasına xüsusi nəzarət təşkil etmişdir. «Yol olmayan yerdə inkişaf da yoxdur»-deyən Prezident İlham Əliyev infrastruktur sahələrində, o cümlədən yol təsərrüfatında aparılan quruculuq işlərini ölkəmizin və onun regionlarının inkişafının ən başlıca amili kimi qiymətləndirir. Yol-nəqliyyat infrastrukturunun yeniləşməsi ölkəmizin sosial-iqtisadi inkişafına əhalinin ümumi yaşayış səviyyəsinə təsir edən müsbət amillərdən sayıla bilər.

2008-ci il Bakı və respublikanın regionlarında yeni yollar, körpülər istifadəyə verilir.

2008-ci ilin dekabrında Heydər Əliyev adına Beynəlxalq Hava Limanı – Əzizbəyov dairəsi avtomabil yolunun, Heydər Əliyev prospektinin əsaslı şəkildə yenidən qurulması, həmçinin Heydər Əliyev, Xətai və Babak prospektinin kəsişməsindəki körpü-tunel kompleksinin növbəti hissələrnin, Xırdalan dairəsində tuneltipli yolötürücüsünün, Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun 16-cı kilometrində yolötürücüsünün, eləcə də Beynəlxalq Avtovağzal kompleksinin istifadəyə verilməsi respublikada yol-nəqliyyat mədəniyyətinin inkişafına çox böyük tövhə olmuşdur.

Hazırda da ölkəmizdə yol-nəqliyyat sisteminin inkişafı ardıcıl olaraq davam etdirilir. Bu yolda aparılan tədbirlərdən biri də «Azərbaycan yol-nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı Dövlət Proqramı»nın hazırlanmasıdır. Belə ki, 2006-2015-ci illəri əhatə edən bu proqramda respublikanın yol infrastrukturunun və digər nəqliyyat növlərinin inkişaf etdirilməsi nəzərdə tutulub.

Aparılan təhlillər göstərir ki, 8,5 milyon əhalisi olan ölkə üçün son dörd ildə yol-nəqliyyat infrastrukturu sahəsində əldə edilən nəticələr kifayət qədər yüksək göstəricidir. Bu, onu göstərir ki, respublikamızda yol-nəqliyyat sisteminin inkişafı ən yüksək səviyyədədir. Bu sahənin inkişafı çox davamlı şəkildə, fasiləsiz davam etdirilir, bu sahədə heç bir yubanma yoxdur.

Ölkədə yol-nəqliyyat infrastrukturunun davamlı inkişafa əhalisinin sosial-mədəni, sosial-iqtisadi vəziyyətinin yüksəlməsinə xidmət edir.

## ƏDƏBİYYAT


1. Əliyev H.Ə. «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının təqdimatına həsr olunmuş ümummilli konfransda nitq». – «Azərbaycan» qəz., Bakı, 2002, 26 oktyabr.
2. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur. Bakı: 2003.
3. Heydər Əliyev neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. I hissə, Bakı: 2001, 416 s.

4. Zeynalov İ. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında. Bakı: Azərnəşr, 2004. 320 s.
5. Müstəqil Azərbaycan 10 il. Statistika Külliyyatı. Bakı:2001, 699 s.
6. Heydər Əliyev işığı – İpək Yolu. Bakı: Azərnəşr, 2000, 286 s.
7. Azərbaycan tarixi. 7cilddə, VII c., Bakı: 2003., 676 səh.
8. «Respublika» qəz., Bakı, 2009, 24 fevral.
9. Azərbaycanın statistik göstəriciləri 2003. Bakı: Səda, 2003, 773 s.
10. Yenə orada.
11. Yenə orada.
12. «Respublika» qəz., Bakı, 2009, 24 fevral.
13. «Respublika» qəz., Bakı, 2009, 8 yanvar.
14. Yenə orada.
15. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi, Fond 1, Siyahı 70, 71, 78, 61, 66.

## РОЛЬ ТРАНСПОРТНО-ДОРОЖНОЙ ИНФРАСТРУКТУРЫ В РАЗВИТИИ ЭКОНОМИКИ НЕЗАВИСИМОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**И.Х.ЗЕЙНАЛОВ**

### РЕЗЮМЕ

Формирование и становление новой социально-экономической системы оказало положительное влияние на развитии транспортно-дорожной инфраструктуры республики в 90-ые годы XX века. Проведение экономических реформ, выгодное географическое положение страны, расширение межгосударственных связей обусловили прогрессивное развитие транспортного комплекса республики. Результатом такого развития является показатели 2008 года по сравнению с 1998 годом: по грузообороту республика заняла первое место в СНГ.

В статье обобщаются итоги удачного развития дорожно-транспортной системы как в столице республики Баку, также в его регионах, городах, поселках и селах. Здесь особое внимание уделяется изучению государственной политики в этой области.

## THE ROLE OF TRANSPORT AND MOVEMENT INFRASTRUCTURE IN THE DEVELOPMENT OF ECONOMY IN THE INDEPENDENT AZERBAIJAN REPUBLIC

**I.Kh.ZEYNALOV**

### SUMMARY

The formation of Summary a new al social-economic system had a positive influence on the transport system. In the 90 s of tne XX century. Conductinq reforms in all branches of economy, includinq transport, in the country of advantageous geographic position; broadening relations with countries had